Salam, Arayik. Necəsən? Necə keçir həyat?

Sənin sülh mesajını oxudum,müəyyən nüanslar olsa da bu o demək deyil ki mən sülh istəmirəm,ümumiyyətlə hər bir insan öz ölkəsində sülh və əmin-amanlıq olmasını istəyir.

Hansı qız istəyər ki qardaşı həlak olsun?ya da hansı ana öz oğlunun cansız bədənini görmək istəyər?

Hər bir ölkə ki ölkəsində sülhün bərqərar olmasını istəyir,o ilk növbədə öz qonşuları ilə sülh şəraitində yaşamalıdır.

Ölkəni var edən də onun xalqıdır,xalq ən öncəlik öz içində azsaylı xalqlarla birgə sülh şəraitində yaşamağa başlayır,sonra qonşular və digər dövlətlərlə.

Sənə açıq danışacam,mən də sülhü sevirəm. Artıq heç bir tərəfdən insanların gözü yaşlı qalmasını istəmirəm,axı mən kosmopolit düşüncəli bir dünyalıyam.

Sənə bir də sirr verim (düzdür bu sirr sənə çatana qədər artıq bir çoxları tərəfdən oxunmuş olacaq). Mən həyatımı erməni bir qıza borcluyam). O bilirdiki mən azərbaycanlıyam və o ermənidir yenə də məni boğulduğum qara dənizdən çıxarıb mənə nəfəs vermişdi.

Rejimə və bir çox insanlara görə ümumi xalqa qiymət vermək olmaz.

Əbədi sülh arzusu ilə

Toghrul